# FATEH, yoxsa XİLASKAR?



...Nə vaxtdandır həmkarlarımızla bizi ciddi düşündürən, əslində, çox narahat edən bir məsələ ötən həftə yaradıcılıq ezamiyyətində olduğumuz Şuşada da müzakirə mövzumuza çevrildi.

Zəfərin zirvə məqamı, rəmzi olan bu müqəddəs məkanda həmsöhbət olduğumuz yüksəkrütbəli zabit də elə bizim narahatlığımızı bölüşürdü. Onun (adının çəkilməsini istəmir) bu məsələni hökmən ictimailəşdirmək barədə ricasından sonra mövzuya aydınlıq gətirməyi zəruri saydıq.

Söhbət son bir ildə leksikonumuzun ən işlək ifadələrindən birinə çevrilən, indi isə az qala hər cümləmizin mübtədası olan "fateh" sözündən gedir...

Tariximizin ən möhtəşəm zəfərinin müəllifi olan Müzəffər Ali Baş Komandana və Silahlı Qüvvələrimizin igidlərinə çoxları "fateh" deyir...

"Qarabağ fatehləri"...

"Şuşa fatehləri"...

Bu ifadə qəzetlərdə, saytlarda bəzən manşetlərdə belə yazılır, telekanallarda tez-tez deyilir...

Doğrudur, təntənəli səslənir, duyğularımızı tam mübaliğəsi ilə əks etdirir. Fəqət deyilişi gözəldir, mənası isə...

Yanlışdır!

Təhrifedicidir!

Qüsurludur!

"Fateh" sözünün konkret mənası var. İzahlı lüğətdə aydın ifadə olunur: "Fateh - bir ərazini, ölkəni tutan, işğal edən şəxs".

Yəni istilaçı...

Aramızda rusdillilərin də, daha dəqiqi, rusca danışmağı xoşlayanların da çoxluğunu nəzərə alıb, bu dildə tərcüməsini də yazaq: "завоеватель".

"Fateh" sözü "освободитель" demək deyil!

Fateh Konstantinopolu İstanbula çevirən Sultan Məhmətdir...

Əfqanıstana, Hindisdana-Dehliyə şanlı bayrağımızı sancan Nadir Şahdır...

Misalları Makedoniyalı İsgəndərdən başlayaraq yaxın keçmişin fatehlərinə qədər istənilən qədər uzatmaq olar.

Azərbaycan Ordusu isə Qarabağı, Şuşanı fəth etməyib, işğaldan azad edib!

Öz yurdumuzun bir parçasını, qədim torpağımızı özümüz necə fəth edə bilərik?!.

Bəyəm Qarabağ başqa ölkəyə məxsusdur?!.

İlham Əliyev və Azərbaycan Ordusu Qarabağın, Şuşanın fatehləri deyillər, əsla deyillər!

Xilaskarlarıdırlar!

Elə Şuşada həmsöhbət olduğumuz zabit də bundan gileyli idi: "Bizə "fateh" deyəndə, bu sözü eşidəndə hər dəfə əsəbiləşirəm. Adam da öz yurdunun fatehi olar?!"

Kimsə fikirləşə bilər ki, "fateh deməklə dünya dağılmır ki?! Sözdür də, deyilir".

Səhv yanaşmadır: "fateh" sözü, "azad edən" ifadəsinin sinonimi deyil, tam əksidir!

Düşmənin də dediyi və əsrlərdir yaydığı yalanı unutmayaq. Qarabağı "qədim erməni yurdu" kimi təqdim edən düşmən elə indi məhz bu cəfəngiyyata söykənir: "Azərbaycan Qarabağı fəth edib". Yəni işğal edib, istila edib...

Bu anlaşılmazlığa, əslində, Prezident İlham Əliyev ötən il oktyabrın 5-də - savaşın gərgin anlarında nöqtə qoyub. Həmin günlərdə Fransa Prezidenti E.Makron Azərbaycan Ordusunu "Qarabağı fəth etməkdə" "ittiham" edirdi. Dövlət başçımız da TRT-yə müsahibəsində E.Makrona xitabən söyləmişdi: *"O, açıqlamasında demişdir ki, "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik". Dağlıq Qarabağ bizim torpağımızdır. Bir dövlət öz torpaqlarını fəth edə bilərmi? Yəni həmsədr bilmirmi ki, bu torpaqlarda qanunsuz olaraq ermənilər oturub bizim bütün tarixi abidələrimizi, məscidlərimizi, qəbirlərimizi, evlərimizi yerləyeksan ediblər. Ona görə "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik" sözləri qəbuledilməzdir. Biz buna səssiz qala bilmərik".*

İndi əlavə şərhə lüzum varmı?..

Zəfərimizə kölgə salmayaq, sözlərimizdə və fikirlərimizdə dəqiq olaq. Düşmən dəyirmanına su tökməyək.

Və ən nəhayət, beyinlərə, yaddaşa, leksikonumuza bu yanlış, təhrifedici, qüsurlu məna verən ifadəni zorla yerləşdirməyək!

*Fateh - yoxdur!*

*Xilaskar - var!*

*Xilaskarlarımıza isə əbədi borcluyuq...*

*Qarabağ fəth olunan yurd deyil, Qarabağ Azərbaycandır!*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

Azərbaycan.- 2021.-19 okyabr.- S.9.